


# Nuru Paşa at belində...

**1918-ci ilin 15 sentyabrında türk xalqının böyük oğlu Nuru Paşanın komandanlığı altında Qafqazın İslam Ordusunun səyi ilə Bakı erməni–daşnak işğalından azad olunub. Bu, Azərbaycan xalqının taleyində olduqca möhtəşəm hadisədir. Xilaskar türk orudusunun komandanı Nuru Paşa o vaxtdan xalqımızın qəlbində özünə əbədi abidə ucaldıb.**

*Nuru Paşa at belində*
*Türkiyədən – Qarsdan gəlir.*
*"Azərbaycan" deyə-deyə,*
*Yaralanmış aslan gəlir...*

Bu parlaq misralar sevimli şairimiz Nəriman Həsənzadənin "Nuru Paşa" poemasındandır. Sənətkar böyük xilaskara layiq gözəl bir sənət əsəri yaradıb. Nuru Paşadan yazanda gərək yaxşı yazasan. Gözəl təbli, ilhamlı, vətənpərvər xalq şairimiz bunu bacarıb.

***(ardı 8-ci səhifədə)***

## 15 Sentyabr Bakının paytaxt olan günüdür

# Nuru Paşa at belində...

### Tarixə qızıl hərflərlə yazılan zəfər




(əvvəli 1-ci səhifədə)

Azərbaycan Cümhuriyyətinin liderlərindən biri 1918-ci il mayın sonlarında Gəncəyə gələn Nuru Paşa haqqında belə yazırdı: "O zaman bir tərəfdən müdhiş bir anarxiyaya məruz qalan, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə şəhəri Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qarşılamışdı".

Məlumdur ki, 1918-ci il iyunun 4-də yenicə müstəqillik qazanmış Azərbaycan qonşu Gürcüstan və Ermənistanla birlikdə Batumidə Osmanlı Türkiyəsi ilə sülh və dostluq haqqında müqavilə bağladı. Yeri gəlmişkən, "Batumi" müqaviləsi ilə Osmanlı Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu.

Azərbaycan Milli Şurasının rəhbərliyi Osmanlı Türkiyəsindən hərbi yardım istədi. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət bu haqda Türkiyə hökumətinə müraciət etdi. Türkiyə öz qardaşlıq borcunu yerinə yetirdi. Osmanlının müdafiə naziri Ənvər Paşanın əmri ilə 1918-ci ilin iyun ayında türk qoşunları Nuru Paşanın komandanlığı altında Azərbaycana göndərildi.

Beləliklə, Türkiyənin iki hərbi qrupdan ibarət 5-ci Qafqaz diviziyası vaxt itirmədən Gümrü–Dilican–Qazax istiqamətində hərəkət etdi. Birinci qrup iyunun 11-də, ikinci qrup isə iyunun 12-də Qazaxa çatdı. Türk ordusu burada böyük coşqu ilə qarşılandı.

Sonra 15-ci Çanaqqala diviziyası Gəncəyə gəldi. Nuru Paşanın komandanlığı altında Azərbaycan korpusu ilə birləşən bu hissələr Qafqaz İslam Ordusunu yaratdılar. 29 yaşlı Nuru Paşa orduya komandan təyin olundu.

Qafqaz İslam Ordusu 1918-ci il iyunun 17-dən sentyabrın 14-dək bir-birinin ardınca uğurlu döyüş əməliyyatları keçirdi. İyulun əvvəllərində milli qüvvələr Göyçay ətrafında, əsasən, ermənilərdən ibarət Bakı Sovetinin hərbi qüvvələrini məğlub etdilər və Bakı şəhəri istiqamətində irəlilədilər.

1918-ci il iyulun sonunda Qafqaz İslam Ordusunun igid əsgər və zabitləri Bakı ətrafına çatdılar. Həmin günlərdə Bakıda qatı millətçi, bolşevik S.Şaumyanın hakimiyyətini "Sentrokaspi" diktaturası əvəz etmişdi.

İngilislərdən hərbi yardım alan oyuncaq diktatura Qafqaz İslam Ordusunun hücumu qarşısında duruş gətirə bilmədi. Şiddətli döyüşlərdən sonra, 1918-ci il sentyabrın 15-də – Qurban bayramı günü Azərbaycan–Türkiyə ordu birləşmələri Bakını azad etdilər. Bu, tarixə qızıl hərflərlə yazılan gündür!



Görkəmli yazıçı Manaf Süleymanov özünün məşhur "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsərində qəhrəman türk ordusunun Bakıya gəlişi barədə müşahidə və təəssüratlarını qələmə almışdır. O, qeyd etmişdir ki, həmin günlərdə Bakı sakinləri hədsiz sevinc içində idilər, hər evdə, küçə və meydanlarda böyük bayram əhval-ruhiyyəsi hökm sürürdü. Nuru Paşanın adı dillərdə əzbər idi. Bu böyük sərkərdəyə uşaqdan-böyüyə hər kəs sevgi və ehtiram göstərirdi.

Lakin Türkiyənin Birinci Dünya müharibəsində məğlubiyyəti Nuru Paşanın başladığı işi yarıda qoydu. Ardınca da 1920-ci ilin 28 aprelində bolşevik Rusiyasının qurduğu "qırmızı" imperiya Azərbaycanı işğal etdi.

...Üç il bundan əvvəl, 2020-ci ilin payızında Azərbaycan xalqı əzəli torpaqlarını işğalçı erməni silahlı qüvvələrindən azad etmək uğrunda şanlı Vətən Müharibəsinə başladı, hünər və qəhrəmanlıq nümayiş etdirərək Zəfər dastanı yazdı. 1918-ci ildə olduğu kimi, qardaş Türkiyə bu dəfə də bizə hərtərəfli dəstək oldu.

Hər birimizin yaxşı yadındadır ki, 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Azərbaycan və Türkiyə prezidentləri, onların xanımları Zəfər paradında iştirak edirdilər. İki qardaş ölkənin əsgər və zabitləri tədbir iştirakçılarının alqışları altında mətin addımlara tribunalar önündən keçdilər. Dostlarımız sevinir, düşmənlərimiz xar olurdu.

Bizim qardaşlığımızı heç bir qüvvə sarsıda bilməz! Dünən belə olub, bu gün belədir, sabah da belə olacaq. Azərbaycan və türk xalqlarının əzəli və əbədi dostluğu bizim qürur mənbəyimiz olaraq qalacaq!

Bir daha vurğulamaq lazımdır ki, şanlı 15 Sentyabr qələbəsi bu gün də iki qardaş xalqın birlik və həmrəylik rəmzi kimi yaşayır. Əsrlər, minillər keçsə də, bu zəfər millətimizin yaddaşından heç vaxt silinməyəcək.

Nuru Paşanın komandanlığı ilə Bakı uğrunda döyüşlər Malazgird (1071), İstanbulun fəthi (1453), Çanaqqala (1915) və digər tarixi zəfərlər kimi Böyük Turanın tarixinə qızıl hərflərlə yazılıb.




Türk haqq və ədalət naminə tarix yaradan millətdir! Onun ən cəsur və mahir sərkərdələrindən biri də məhz Nuru Paşa olub! Ruhu şad olsun!

***Məsaim ABDULLAYEV***
***XQ***

## Ekspert rəyi



**Şəmistan NƏZİRLİ,**
**hərbi tədqiqatçı,**
**yazıçı–publisist:**

– Qafqaz İslam Ordusu 105 il əvvəl Bakını çox böyük fədakarlıqlar nümayiş etdirərək azad etmişdir. Yayın qızmar istisində min-bir əziyyətlə Şirvan–Muğan düzünü keçib gələn türk ordusu böyük qəhrəmanlıqlara imza atmışdır. Əgər Qafqaz İslam Ordusunun əsgərləri Bakını işğaldan azad etməsəydi, bolşevik-daşnak və eser-menşevik qoşunları bütün əhalini Xəzər dənizinə tökə bilərdi. Düşmənlər böyük soyqırımları törədəcək, uşaq, qadın, yaşlı demədən hamını məhv edəcəkdilər. Onsuz da bunları edirdilər.

Əgər Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu şəhərə girməsəydi, Bakını daha faciəli aqibət gözləyirdi. Nuru Paşanın rəhbərlik etdiyi ordunun xeyli hissəsini Azərbaycan hərbçiləri təşkil edirdi. Onlar ikiqat igidliklə vuruşub, qəhrəmanlıq göstəriblər. General Əliağa Şıxlınski, həmin vaxt polkovnik olan Həmid bəy Səlimov və yüzlərlə zabitimiz bu qələbədə böyük rol oynayıblar.

Təsadüfi deyil ki, Nuru Paşa Azərbaycan hərbçilərini "Məcidiyyə" ordeni ilə təltif edib. O zaman polkovnik olan, daha sonra general rütbəsinə yüksələn Cavad bəy Şıxlınski də bu ordenə layiq görülüb. Yəni, bizim öz qoşunlarımız, Əlahiddə Müsəlman Korpusumuz var idi. Əli silah tutanların hamısı Qafqaz İslam Ordusunun tərkibində vuruşurdu. 6 minə yaxın azərbaycanlı Nuru Paşanın və Əliağa Şıxlınskinin komandanlığı altında döyüşüb. Onların nə qədəri şəhid olub.

O zaman Bakı düşmənlərdən azad edilməsə idi, Azərbaycan Xalq Cümhuriyyəti adlı bir dövlət davam gətirə bilməzdi, sonrakı tariximiz yadların tam ağalığı ilə bağlı olardı. Həmin dövrdə bizə qardaş köməyi hava, su kimi lazım idi. Erməni qaniçən Şaumyanın ən böyük arzusu Bakını erməni şəhərinə çevirmək və paytaxtımızı Rusiyanın bir vilayətinə döndərmək idi. Ona görə də hər vəchlə türk ordusunu Bakıya buraxmamağa çalışırdılar.

Amma Ənvər Paşa o ağır durumlarda belə Azərbaycanı yalnız buraxmadı. Osmanlı torpaqları işğalla üzüzə ikən Azərbaycanı işğaldan azad etmək üçün qoşun göndərmək böyük risk idi, ancaq Ənvər Paşa risklərin adamı idi və bunu etdi.

Ənvər Paşa və silah yoldaşları soydaşımız olan Azərbaycan türklərini erməni zülmündən, qırğın və təcavüzlərdən xilas etmək, ermənilərdən törətdikləri qətliamların intiqamını almaq üçün Qafqaz İslam Ordusunu formalaşdırdı və qardaşı Nuru Paşanı Azərbaycana göndərdi. İki qardaş xalq birləşdi və Bakı işğaldan azad edildi.

## Ekspert rəyi



**Mehman SÜLEYMANOV,**
**hərbi tarixçi, ehtiyatda olan polkovnik**

– Nuru Paşanın komandanlığı altında Bakının azad edilməsi əməliyyatı dünya hərb tarixinin ən şanlı səhifələrindən biridir. Hücumun təşkili məqsədilə 1918-ci il sentyabrın 10-da Qafqaz İslam Ordusu komandanı Nuru Paşa və Azərbaycan Korpusunun komandanı Əliağa Şıxlinski Bakı ətrafındakı vəziyyətlə tanış olmuş, komandirlərin məruzələrini dinləmişdilər.

Nuru Paşa ayın 13-də saat 17:11-də Hacı Həsən kəndinin qərbindəki müşahidə məntəqəsində Bakı üzərinə həlledici hücumu başlamaq barədə döyüş əmrini imzaladı. Əmrə əsasən, həlledici hücum sentyabrın 14-nə keçən gecə başlamalı idi.

5-ci türk diviziyası Bayıldan başlayaraq, təxminən, Biləcərinin qərb ətəklərinə qədər olan ərazidən şəhərə doğru hərəkət etməli idi. Biləcəri–Sabunçu–Əhmədli dairəsi boyunca isə 15-ci türk diviziyası hücuma keçməli idi. Azərbaycanın milli hərbi qüvvələrinin böyük bir hissəsi də məhz bu istiqamətdən hücuma qoşulmuşdu.

Baxmayaraq ki, Qurd qapısı yüksəklikləri ilə topları sürüyüb çıxarmaq elə də asan deyildi, amma göstərilən əzmkarlıq, qətiyyət və yüksək sürət hələ gecə ikən ilk müdafiə səngərlərini ələ keçirməyə və orada möhkəmlənməyə imkan verdi. Bu hücum elə bir sürətlə həyata keçirildi ki, hətta Qafqaz İslam Ordusunun komandanlığı üçün də onun nəticələri xoş bir təəccüblə qarşılandı.

General Denstervil gözlərinə inana bilmirdi ki, onun əsgərlərinin əlverişli mövqelərdə durduqları müdafiə səngərləri türklər tərəfindən gecə vaxtı belə bir sürətlə ələ keçirilmişdir...

Sentyabrın 15-də Qafqaz İslam ordusu qüvvələri uğurlu hücumu davam etdirdilər və qarşıya qoyulmuş vəzifənin həllinə daha da yaxınlaşdılar. Çıxış yolunun qalmadığını görən Sentrokaspi hərbi diktaturasının rəhbərliyi İranın Bakıdakı konsulu Saədülvüzəradan Bakı üzərinə hücumun dayandırılması üçün vasitəçilik etməyi xahiş etdi.

Tərəflər arasında aparılan danışıqlardan sonra Sentrokaspi rəhbərliyi Bakı şəhərini Qafqaz İslam Ordusunun nəzarəti altına verməyi öz üzərinə götürdü.

Bakının azad edilməsi xəbərini M.Ə.Rəsulzadə İstanbulda olarkən eşitdi. O, dərhal Azərbaycan hökumətinin sədri F.Xoyskiyə teleqram göndərib Azərbaycan xalqını bu tarixi hadisə münasibətilə təbrik etdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri Fətəli xan Xoyski Bakının azad edilməsi uğrunda türk hərbçilərinin göstərdiyi xidmətləri Nuru paşaya xitabən belə dəyərləndirmişdi: "Millət sizə minnətdardır".